**Bakalavriat təhsil səviyyəsində əyani və qiyabi formada təhsil alan tələbələr üçün 2025/2026-cı tədris ilinin yaz semestrinin imtahan sessiyasında test formasında keçiriləcək imtahanlara dair**

# T Ə L İ M A T

**Əziz tələbələrimiz!**

Nəzərinizə çatdırırıq ki, 2025/2026-cı tədris ilinin yaz semestri üzrə imtahanlar bəzi fənlərdən test üsulu ilə keçiriləcəkdir. Test imtahanları elektron formada kompüterdə əvvəlki tədris illərindən fərqli olaraq Eduman proqramının “Test modulu” vasitəsilə qəbul ediləcəkdir. Test imtahanları əsas tədris binasında əvvəlcədən ayrılmış 10 otaqda keçiriləcəkdir. Semestr ərzində keçirilmiş material əsasında 300-500 testlər hazırlanıb.

Təqdim edilən test sualları 5 variantda cavabdan ibarətdir. Orada ancaq bir variant düzdür, yerdə qalan 4-ü isə yanlışdır. Düzgün olmayan 4 səhv cavab 1 düz cavabı siləcək. Ona görə də imtahan zamanı sualları diqqətlə oxumağınız və cavabları dəqiq təyin etməyiniz tövsiyə olunur.

Test imtahanları verəcək hər bir tələbə üçün Eduman sistemi üzərindən Şəxsi kabinetə giriş etmək üçün istifadəçi adı (login) və parolu yaradılıb və Sizə paylanıb.

Kabinetə giriş linki: https://kabinet.gdu.edu.az/

Unutmayın ki, Şəxsi kabinetə giriş etmək üçün Sizə verilən istifadəçi (login) adı və parolu imtahan sessiyasının sonuna qədər daimi olaraq istifadə edəcəksiniz, **ona görə də həmin istifadəçi adı (login) və parolu itirməməyiniz tövsiyə olunur**. İstifadəçi adı (login) və parolu itdiyi halda tyutorunuza və fakültəniz üzrə Eduman admininə müraciət edə bilərsiniz.

Tələbənin şəxsi kabinetinə hər bir fənn üzrə Test imtahanı üçün ayrıca birdəfəlik istifadəçi adı (login) və şifrə gələcək, və müxtəlif fənlər üçün bu şifrə fərqli olacaq. Həmin istifadəçi adı (login) və şifrə ilə imtahan zamanı

https://examination.gdu.edu.az/gdu_examination/

imtahan səhifəsindən imtahana qoşulacaqsınız.

**Şəxsi Kabinetə giriş üçün loqin və şifrə ilə fənn imtahanına aid loqin və şifrəni qarışdırmaq olmaz!**

Test imtahanında bir sualın cavabı 1 bal ilə qiymətləndiriləcək.

İmtahandan keçmək üçün imtahandan minimum 17 bal toplamalısınız. İmtahan balı ilə imtahana qədərki (semestr ərzində topladığınız) balın cəmi minimum 51 bal olmalıdır. Əks halda imtahan nəticəniz nəzərə alınmayacaq.

İmtahana 60 dəqiqə vaxt veriləcək.

İmtahanda iştirak etmək üçün ilk öncə Universitetin əsas tədris binasında ayrılmış xüsusi otaqlara imtahan başlamazdan ən azı 15 dəqiqə əvvəl gəlmək lazımdır. İmtahan otağına daxil olmazdan əvvəl ixtisas üzrə tyutora müraciət etməli, imtahan nəzarətçisinin göstərişi ilə otaqlara daxil olmalısınız. İmtahan otağındakı avadanlıqlara qayğı ilə yanaşmalı, imtahan bitdikdən sonra otağı tərk etməlisiniz. Yadda saxlamaq lazımdır ki, Sizin ehtiyatsız davranışınız nəticəsində imtahan otağında zədələnən hər bir əşyaya cavabdehlik daşıyırsınız. Özünüzlə gətirdiyiniz əşyalarla diqqətli olmağınız tövsiyə edilir. İmtahan otaqlarında itən əşyalara nəzarətçilər cavabdehlik daşımır.

İmtahan otağına daxil olan zaman otaq nəzarətçisinə şəxsiyyət və tələbə vəsiqənizi təqdim etməlisiniz. İmtahan otağındakı nəzarətçilər Sizi uyğun yerlərdə əyləşdirəcək. Şəxsiyyət və tələbə vəsiqəniz üzərinizdə olmadığı halda imtahana buraxılmayacaqsınız. Ona görə də hər iki sənədin üzərinizdə olmasına diqqət etməyiniz məsləhət bilinir.

İmtahan zamanı Sizə verilmiş istifadəçi adı (login) və parolu kompüterdə imtahan proqramına daxil etməlisiniz. İmtahanlar elektron formada olduğu üçün imtahanın başlama müddətini gözləməlisiniz. İmtahana vaxtından əvvəl başlamaq və imtahana gec gəlmək olmaz. Müəyyən edilmiş vaxtda açılmadıqda səhifəniz deaktiv olunur və Sizə imtahana gəlmədi qeydi aparılır. Ona görə də imtahana cədvəldə göstərilən vaxtdan əvvəl gəlmək tövsiyə olunur.

İmtahan başlayan vaxtdan 30 dəqiqə keçməyənə qədər imtahanı bitirə bilməzsiniz. Ancaq 30 dəqiqədən sonra imtahanı bitirə bilərsiniz. İmtahanı bitirən zaman müəyyən ardıcıllığa riayət etməlisiniz.

## TƏLƏBƏ İMTAHAN SƏHİFƏSİ

TƏLƏBƏLƏR **EDUMAN** PLATFORMASINDA YERLƏŞƏN ŞƏXSI KABINETLƏRINƏ DAXIL OLMAĞI BACARMALIDIRLAR.

TƏLƏBƏLƏR MÜXTƏLIF MODULLARDAN DÜZGÜN VƏ MƏQSƏDYÖNLÜ ISTIFADƏ ETMƏYI BACARMALIDIRLAR.

KABİNETƏ DAXİL OLDUQDAN SONRA SOL PANELDƏ, MODULLAR SİYAHISINDA **BILDIRIŞ MODULUNDA** HƏR BIR IMTAHAN ÜZRƏ ZƏRURI MƏLUMATLAR YERLƏŞDIRILƏCƏK. BU MƏLUMATLARA IMTAHANA GIRIŞ ÜÇÜN ISTIFADƏÇI ADI VƏ PAROL DA DAXILDIR.

HƏMIN PANELDƏ HƏM DƏ **İMTAHAN CƏDVƏLI** MODULU VAR. BU MODULDA İMTAHAN TARIXI, VAXTI BILINƏCƏK, VƏ **IMTAHANA GIRIŞ ÜÇÜN ISTIFADƏÇI ADI VƏ PAROL** DA ƏLAVƏ EDILƏCƏK KI, TƏLƏBƏ DAIM DIQQƏTINDƏ SAXLASIN.

TƏLƏBƏLƏR HƏR BIR IMTAHAN ZAMANI HƏMIN ISTIFADƏÇI ADI VƏ PAROLU ÖZLƏRI ILƏ GƏTIRMƏLIDIRLƏR.

**DIQQƏTINIZƏ ÇATDIRIRIQ KI, ISTIFADƏÇI ADI VƏ PAROL HƏR IMTAHAN ÜÇÜN FƏRQLI OLACAQ.**

**İMTAHANDAN ƏVVƏL:**

1. İlk olaraq imtahana gəlmədən Eduman sistemi üzərindən şəxsi kabinetə daxil ol:




Kabinetdə Sol tərəfdə menyu içərisindən **BİLDİRİŞLƏR** və ya **İMTAHAN CƏDVƏLİ** moduluna daxil ol.




Buradan olacaq imtahanlar haqqında məlumatı öyrən və yaddaş kitabcanda **İSTİFADƏÇİ ADINI** və **ŞİFRƏNİ QEYD ET.**

Hər imtahan üçün **İSTİFADƏÇİ ADI** və **ŞİFRƏ YENİLƏNƏCƏK.**

**Bu məlumat yalnız tələbənin kabinetində mövcuddur və tələbədən kənar heç kəs bu məlumatı görmür!!!**

**Bu məlumatı özünüzlə imtahana gətirərək imtahana daxil olmaq üçün istifadə edəcəksiniz.**

Kabinetinizdə imtahanın vaxtı və tarixi haqqında məlumat **İMTAHAN CƏDVƏLİ** modulunda yerləşir.



## İMTAHANDA- TƏLƏBƏ İMTAHAN SƏHİFƏSİ

Açılan pəncərədə istifadəçi adı və şifrəni daxil edirsiniz.




**ŞİFRƏ VƏ İSTİFADƏÇİ ADI DÜZ OLMALIDIR!!!**

Əks halda sistem tərəfindən məlumat gələcək və imtahana daxil ola bilməyəcəksiniz.




1. Düz istifadəçi məlumatı daxil edərək




**DAXİL OL** düyməsini sıxırsınız.

Açılan pəncərədə **İMTAHAN QAYDALARI** təqdim edilir.




**İMTAHAN QAYDALARI** sözünün üzərində klikləyərək qaydalarla tanış olun:




***İmtahan qaydaları ilə tanış oldum və razıyam*** ifadəsinin qarşısında $\Upsilon$ işarəsini qoyursunuz və açılan pəncərədə **BAŞLA** düyməsini sıxırsınız.

2. İmtahan səhifəsi açılır:




**Sol Panel (Tələbə Məlumatları)**

- **Tələbənin şəkli (əgər sistemdə varsa)**
- **Ad, soyad, ata adı**
- **İxtisas**
- **Qrup nömrəsi**
- **Sistemdə giriş sayı**

Yuxarı sağ küncdə imtahan başlayan andan vaxta nəzarət üçün saat görünür




Hər hansı səbəbdən sistemdən çıxılırsa vaxt dayandırılır, siz imtahana daxil olduqda yenidən davam edir.

*Orta Panel – Sualların siyahısı*




Bu paneldə

**№ Suallar Cavablanıb**

sütunlari qeyd edilib. Burada

**№** -sualın sıra nömrəsini

**Suallar** – suallar siyahısını

**Cavablanıb** - cavablanma statusunu (cavablanıb ya yox). Əgər tələbə sual üçün cavab seçibsə, bu sütun avtomatik işarələnir.

**Qeyd olunub** – Cavabsız olan və sizin tərəfinizdən sonra (imtahan zamanı) baxılması üçün qeyd edilən suallar əks olunur. Bu düymə tələbənin cavabı sonra vermək istədiyi suallara aiddir.

**SUALA KEÇID ÜÇÜN KLIKLƏYIN** -üzərində vurmaqla həmin saylı suala keçid alırsınız.

**İMTAHAN ZAMANI TƏLƏBƏ HƏR SUAL ÜÇÜN AYRI-AYRILIQDA CAVAB VERIR.**




Hər sual səhifəsində aşağıdakılar əks olunur:

- Sualın mətni
- Cavab variantları
- **QEYD ET** seçim qutusu – sual daha sonra baxmaq üçün işarələnə bilər.

Düşünməyə ehtiyac varsa, Sağ yuxarı küncdə **QEYD ET** düyməsini sıxaraq ✅ işarəsini qoyursunuz.







Tələbə düz cavabı qeyd etmək istəyirsə, cavab bölməsində düz bildiyiniz cavabın qarşısında ✅ işarəsini qoyur.




Burada aşağıdakı düymələr var:

| Düymə | Təyinat |
|---|---|
| **Əvvəlki** | Əvvəlki suala keçid |
| **Növbəti** | Növbəti suala keçid |
| **Bütün suallar** | İmtahanda olan bütün sualların xülasə siyahısını göstərir |
| **Qeyd olunanlar** | Qeyd edilmiş, lakin cavablandırılmamış və ya yenidən baxılmaq istənilən sualların siyahısı |
| **Cari Vəziyyət** | Cari cavablandırma vəziyyətinin ümumi icmalını açır (aşağıda ətraflı izah edilib) |

Tələbə **"Cari Vəziyyət"** düyməsini kliklədikdə, qarşısına imtahandakı ümumi vəziyyətin göstəriciləri çıxır. Bu panel imtahan zamanı nəzarəti itirməmək və hansılara cavab verildiyini izləmək üçün faydalıdır. Belə ki, tələbə hər hansı sualın cavabını dəyişmək istəyirsə, "Cari Vəziyyət" düyməsini sıxır, sonra suallar panelinə qayədaraq həmin sualı tapir və zəruri düzəlişləri edir.

Tələbə doğru hesab etdiyi cavabı seçir və növbəti suala keçmək üçün **"NÖVBƏTI"** düyməsini klikləyir.




Ardıcıl davam edilir, suallar bitəndə isə aşağıdakı pəncərə açılır.




Burada cavablana və qeyd edilən suallar görünür, qayıdaraq qeyd edilən sualı cavablandırmaq və istənilən digər imtahan cavabını dəyişmək imkanı var. ***Qeyd edilən*** sualın üzərində klikləyərək həmin suala qayıdaraq, qeyd et dyməsi qarşısında işarəni götürüb, düz cavab seçilir.

İmtahanı bitirmək üçün sağ aşağı küncdə



**CARİ VƏZİYYƏT DÜYMƏSİNİ** sıxmaq lazımdır.




Burada system tərəfindən seçim təqdim edilir:

-**IMTAHAN**--- əgər imtahana qayıdıb nə isə bir dəyişiklik etmək lazımirsa seçilir;

-**BİTİR**--- imtahani BİTİRMƏK lazım olduqda seçilir.

İmtahandan 30 dəqiqədən az vaxt keçərsə, bitirmək olmayacaq, və xəbərdarlıq gələcək




İmtahanı bitirmək istəyinizə əmin olduqda **BİTİR** düyməsini sıxmaq lazımdır. Sistem tərfində sual gələcək:




**OK** düyməsini sıxdıqda

Aşağıdakı pəncərə açılır




İmtahan prosesi uğurla tamamlandıqdan sonra sistem avtomatik olaraq tələbəni nəticə səhifəsinə yönləndirir. Bu səhifədə tələbə öz imtahan performansına dair əsas göstəriciləri real vaxtda görə bilər

| Məlumat | Təsviri |
|---|---|
| **Fənn** | İmtahanın keçirildiyi fənnin adı |
| **İmtahana giriş balı** | Əvvəlki mərhələdən (buraxılışdan) gələn ilkin bal |
| **İmtahanda yığılmış bal** | Tələbənin test əsasında topladığı ümumi bal |
| **Düzgün cavabların sayı** | Tələbənin düzgün cavablandırdığı sualların sayı |
| **Səhv cavabların sayı** | Yanlış cavablandırılmış sualların sayı |
| **Nəticə** | Tələbənin yekun qiyməti (məs: *F*) – bu sistemdə təyin edilmiş qiymətləndirmə şkalasına əsasən hesablanır |

İmtahan nəticələri imtahan bitən an ekranda görünəcək. İmtahan nəticəsi ilə imtahanaqədərki balları toplayaraq nəticənizi hesablaya bilərsiniz. İmtahanın suallarından və nəticələrindən razı olmadıqda universitet üzrə yaradılmış Apellyasiya komissiyasının sədrinə həmin gün, müstəsna hallarda isə növbəti gün əsaslandırılmış ərizə ilə müraciət edə bilərsiniz. Müraciətiniz əsaslı olduqda Apellyasiya komissiyasının sədri uyğun fakültə dekanı, kafedra müdiri və fənn müəllimi daxil olmaqla komissiyanı təşkil edəcək və nəticələr yenidən araşdırılacaq. Apellyasiya komissiyasının rəyi müsbət olduqda imtahanın nəticəsinə dəyişiklik edilə bilər. İmtahan nəticələri elan olunduqdan sonra müəyyən edilmiş müddətdən gec təqdim olunmuş ərizə qəbul edilməyəcək.

**Diqqət!**

- İmtahanlarda test sualının qoyuluşunda, testin düzgün cavabında hər hansı bir elmi və ya texniki səhv aşkar etdiyiniz halda **testi cavablandırmamağınız tövsiyə edilir.** Siz testi cavablandırdığınız halda həmin test sualına dair şikayətə Apellyasiya komissiyası tərəfindən baxılmayacaqdır. Testdəki həmin səhvi "**Nümunə**"də göstərilən ərizə formasında qeyd etməklə (testin nömrəsi, düzgün cavabın olmadıgı, sualın qoyuluşunda səhv və ya düzgün cavab bir neçə variantda olduğu halda) **imtahan günü, müstəsna hallarda isə növbəti gün** həmin ərizə forması ilə Apellyasiya komissiyasına müraciət etməlisiniz. Müraciətinizi əsas tədris binasında Apellyasiya komissiyasının nümayəndəsinə təqdim edə bilərsiniz.

Ərizə nümunəsi təlimatın sonuna əlavə edilir.

Apellyasiya komissiyası əsas tədris binasında (Heydər Əliyev prospekti, 429) yerləşir.

***İMTAHAN MƏRKƏZİ***

***Nümunə***

***Gəncə Dövlət Universitetinin rektoru prof. Y.Ə.Yusibova Tarix-coğrafiya fakültəsinin Tarix ixtisasının I kurs tələbəsi Bağırov Cavid Ərtogrul oğlundan***

***Ə R İ Z Ə***

***Hörmətli Yusif müəllim!***

____.01.2026-ci il tarixdə saat _____ - da "Azərbaycan tarixi-1" fənnindən test imtahanı vermişəm. İmtahanda mənə təqdim olunan 13-cü testdə düzgün cavab yoxdur (*başqa səbəblərdə göstərilə bilər*). Mən testi cavablandırmamışam. Xahiş edirəm qeyd olunan testi yoxlayıb mənim imtahan qiymətimdə dəyişiklik edəsiniz.

Imza: C.Ə.Bağırov

Tarix: __.01.2026 (***Ərizədə göstərilən tarixlə təqdim edilmə tarixi eyni olmalıdır***).

**Bakalavriat və magistratura təhsil səviyyələrində əyani və qiyabi formada təhsil alan tələbələr üçün 2025/2026-ci tədris ilinin payız semestrinin imtahan sessiyasında yazılı formada keçiriləcək imtahanlara dair**

**T Ə L İ M A T**

**Əziz tələbələr!**

Nəzərinizə çatdırırıq ki, 2025/2026-cı tədris ilinin payız semestri üzrə imtahanlar bakalavriat səviyyəsində bir neçə fəndən, magistratura səviyyəsində isə bütün fənlərdən yazılı formada keçiriləcək. Semestr ərzində keçirilmiş material əsasında bakalavriat səviyyəsində 75, magistratura səviyyəsində 50 ədəd sual hazırlanacaq və yazılı imtahanda bu suallardan seçilmiş 5 sualdan ibarət bakalavriat səviyyəsində 30 ədəd, magistratura səviyyəsində isə 15-30 ədəd bilet tərtib olunacaq. İmtahanda SİZə əvvəlcədən təyin edilmiş varianta uyğun bilet və cavab blankı təqdim ediləcək.

Yazılı imtahanda bir sualın cavabı 0-10 bal ilə qiymətləndiriləcək.

İmtahandan keçmək üçün minimum 17 bal toplamalısınız. İmtahan balı ilə imtahanaqədərki (semestr ərzində topladığınız) balın cəmi minimum 51 bal olmalıdır. Əks halda imtahan nəticəniz nəzərə alınmayacaq.

İmtahana 2 saat vaxt veriləcək.

İmtahanda iştirak etmək üçün ilk öncə bakalvriat səviyyəsində əyani formada təhsil alanlar Universitetin II tədris binasında, qiyabi formada və magistratura səviyyəsində təhsil alanlar isə V tədris binasında ayrılmış xüsusi otaqlara imtahan başlamazdan ən azı 15 dəqiqə əvvəl gəlməlidir. İmtahan otağına daxil olmazdan əvvəl ixtisas üzrə tyutora müraciət etməli, imtahan nəzarətçisinin göstərişi ilə otaqlara daxil olmalısınız. İmtahan otağındakı avadanlıqlara qayğı ilə yanaşmalı, imtahan bitdikdən sonra otağı tərk etməlisiniz. Yadda saxlamaq lazımdır ki, Sizin ehtiyatsız davranışınız nəticəsində imtahan otağında zədələnən hər bir əşyaya cavabdehlik daşıyırsınız. Özünüzlə gətirdiyiniz əşyalarla diqqətli olmağınız tövsiyə edilir. İmtahan otaqlarında itən əşyalara nəzarətçilər cavabdehlik daşımır.

İmtahan otağına daxil olan zaman otaq nəzarətçisinə şəxsiyyət vəsiqənizi və tələbə vəsiqənizi təqdim etməlisiniz. İmtahan otağındakı nəzarətçilər Sizi uyğun yerlərdə əyləşdirəcək. Şəxsiyyət və tələbə vəsiqəniz üzərinizdə olmadığı halda imtahana buraxılmayacaqsınız. Ona görə də hər iki sənədin üzərinizdə olmasına diqqət etməyiniz məsləhət bilinir.

İmtahan zamanı Sizə imtahan verəcəyiniz fənnə aid bilet və cavab blankı təqdim ediləcək. Sualları diqqətlə oxumağınız və cavabları dəqiq və əhatəli yazmağınız tövsiyə olunur. Cavab blankı göy rəngli diyircəkli qələmlə (ruçka) yazılmalıdır. Cavablar aydın və səlis xətlə yazılmalı, oxunan olmalıdır. Cavab blankına şərti işarə qoymaq, ad, soyad və ata adı yazmaq qəti qadağandır. Cavab blankında hər hansı bir işarə, simvol və digər işarə aşkar edildiyi halda cavabınız nəzərə alınmayacaq və nəticəniz qeyri-kafi qiymətləndiriləcək. Ona görə də bu məsələyə diqqət ayırmağınız tövsiyə olunur.

İmtahan otağından çıxan zaman cavab blankını və bileti nəzarətçiyə təqdim etməli və siyahı üzrə adınızın qarşısında sənədləri təqdim etməyiniz barədə imza etməlisiniz. Cavab blankını nəzarətçiyə təhvil vermədən imtahan otağını tərk etmək qadağandır. İmtahana 30 dəqiqədən çox gecikən tələbə imtahana buraxılmayacaq. İmtahan otağından ən tezi imtahan bitməsinə 60 dəqiqə qalmış cavab blankını nəzarətçiyə təhvil verdikdən sonra çıxa bilərsiniz. Əks təqdirdə Sizin hərəkətləriniz Universitet daxili intizam qaydalarını pozmaq kimi qiymətləndiriləcək, aktlaşdırılacaq və imtahan nəticəniz ləğv ediləcək. Ona görə də bu kimi hallara yol verməməyiniz tövsiyə olunur.

İmtahanın gedişində digər tələbələrlə danışan, onlara mane olan, imtahanda səs salan, kitabdan, mühazirə konspektlərindən və sair icazə verilməyən materiallardan istifadə edən və köçürən tələbə imtahandan xaric ediləcək, aktlaşdırılacaq və imtahanın nəticəsinə görə ona 0 “sıfır” bal müəyyənləndiriləcək.

İmtahan nəticələri 3 iş günü ərzində tələbələrə elan ediləcək. İmtahanın nəticələrindən razı olmadıqda universitet üzrə yaradılmış Apellyasiya komissiyasının sədrinə qiymət elan olunan gün, müstəsna hallarda isə növbəti gün əsaslandırılmış ərizə ilə müraciət edə bilərsiniz. Müraciətiniz əsaslı olduqda Apellyasiya komissiyasının sədri uyğun fakültə dekanı, kafedra

müdiri və fənn müəllimi daxil olmaqla komissiyanı təşkil edəcək və nəticələr yenidən araşdırılacaq. Apellyasiya komissiyasının rəyi müsbət olduqda imtahanın nəticəsinə dəyişiklik edilə bilər. İmtahan nəticələri elan olunduqdan sonra müəyyən edilmiş müddətdən gec təqdim olunmuş ərizə qəbul edilməyəcək.

Ərizə nümunəsi təlimatın sonuna əlavə edilir.

Apellyasiya komissiyası əsas tədris binasında (Heydər Əliyev prospekti, 429) yerləşir.

**Diqqət!**

- İmtahanlarda sualın qoyuluşunda hər hansı bir elmi və ya texniki səhv aşkar etdiyiniz halda sualı cavablandırmamağınız tövsiyə edilir. Bu halda otaq nəzarətçisinə müraciət edin (sualda düzəliş edilə və ya yeni bilet təqdim oluna bilər).

***İMTAHAN MƏRKƏZİ***

***Nümunə***

***Gəncə Dövlət Universitetinin rektoru prof. Y.Ə.Yusibova***
***Tarix-coğrafiya fakültəsinin (Magistratura şöbəsinin) Tarix ixtisasının (əyani və ya qiyabi) I kurs tələbəsi Bağırov Cavid Ərtogrul oğlundan***

***Ə R İ Z Ə***

***Hörmətli Yusif müəllim!***

____.01.2026-ci il tarixdə saat ____ -da "Azərbaycan tarixi-1" fənnindən yazılı imtahan vermişəm. Mənə düşən sualı cavablandırsam da düzgün qiymətləndirmə aparılmadığına görə nəticələrlə razı deyiləm. Xahiş edirəm mənim cavablarımı təkrar yoxlatdırıb imtahan qiymətimdə dəyişiklik edəsiniz.

Imza: C.Ə.Bağırov

Tarix: __.01.2026 (***Ərizədə göstərilən tarixlə təqdim edilmə tarixi eyni olmalıdır***).

**Bakalavriat təhsil səviyyəsində əyani formada təhsil alan tələbələr üçün 2025/2026-cı tədris ilinin payız semestrinin imtahan sessiyasında şifahi formada keçiriləcək imtahanlara dair**

**T Ə L İ M A T**

**Əziz tələbələr!**

Nəzərinizə çatdırırıq ki, 2025/2026-cı tədris ilinin payız semestrində şifahi formada imtahanlar Kimya və biologiya fakültəsinin Biologiya (ikili diplom) və Kimya və biologiya müəllimliyi (tədrisi ingilis dilində) ixtisaslarında keçiriləcəkdir. Semestr ərzində keçirilmiş material əsasında hazırlanmış 75 ədəd sualdan hər birində 5 sual olmaqla 30 ədəd bilet hazırlanacaq.

Şifahi imtahanda bir sualın cavabı 0-10 bal ilə qiymətləndiriləcək.

İmtahandan keçmək üçün imtahandan minimum 17 bal toplamalısınız. İmtahan balı ilə imtahanaqədərki (semestr ərzində topladığınız) balın cəmi minimum 51 bal olmalıdır. Əks halda imtahan nəticəniz nəzərə alınmayacaq.

Bilet çəkdikdən sonra tələbəyə hazırlaşmaq üçün 15 dəqiqə vaxt veriləcək.

İmtahanda iştirak etmək üçün ilk öncə fakültənizdə ayrılmış xüsusi otaqlara imtahan başlamazdan ən azı 15 dəqiqə əvvəl gəlmək lazımdır. İmtahana gec gələn tələbə öz vaxtını itirə bilər. Bu isə onun sualları cavablandırmağına vaxtının az qalmasına və yaxşı nəticə əldə edə bilməsinə mane ola bilər. Ona görə də imtahana cədvəldə göstərilən vaxtdan əvvəl gəlmək tövsiyə olunur.

İmtahan otağına daxil olmazdan əvvəl ixtisas üzrə tyutora müraciət etməli, imtahan nəzarətçisinin göstərişi ilə otaqlara daxil olmalısınız. İmtahan otağındakı avadanlıqlara qayğı ilə yanaşmalı, imtahan bitdikdən sonra otağı tərk etməlisiniz. Yadda saxlamaq lazımdır ki, Sizin ehtiyatsız davranışınız nəticəsində imtahan otağında zədələnən hər bir əşyaya cavabdehlik daşıyırsınız. Özünüzlə gətirdiyiniz əşyalarla diqqətli olmağınız tövsiyə edilir. İmtahan otaqlarında itən əşyalara nəzarətçilər cavabdehlik daşımır.

İmtahan otağına daxil olan zaman otaq nəzarətçisinə şəxsiyyət vəsiqənizi və tələbə vəsiqənizi təqdim etməlisiniz. İmtahan otağındakı nəzarətçilər Sizi uyğun yerlərdə əyləşdirəcək. Şəxsiyyət və tələbə vəsiqəniz üzərinizdə olmadığı halda imtahana buraxılmayacaqsınız. Ona görə də hər iki sənədin üzərinizdə olmasına diqqət etməyiniz məsləhət bilinir.

İmtahan zamanı Sizə biletlər və cavab blankı təqdim ediləcək. Siz imtahanda bilet çəkməli və biletdə göstərilən suallara cavab verməlisiniz.

Şifahi imtahan zamanı sualları diqqətlə oxumağınız və cavablara dəqiq cavab verməyiniz tövsiyə olunur. Bileti çəkdikdən sonra biletin nömrəsini müəllimə və ya nəzarətçiyə deməlisiniz. Sualın cavabını blanka yazmalı və müəyyən qeydiyyat aparmalısınız. Bu sizə cavab prosesində kömək edə bilər. Əgər sualın cavabını dəqiq bilirsinizsə bileti çəkən kimi cavab verə bilərsiniz. Bu hal sizə cavabınıza görə artıq bal yazılmasına əsas verə bilər.

İmtahan otağından çıxan zaman cavab blankını və bileti müəllimə və ya nəzarətçiyə təqdim etməlisiniz. Cavab blankını təhvil vermədən imtahan otağını tərk etmək qadağandır.

İmtahanın gedişində digər tələbələrlə danışan, onlara mane olan, imtahanda səs salan, kitabdan, mühazirə konspektlərindən və sair icazə verilməyən materiallardan istifadə edən və köçürən tələbə imtahandan xaric edilərək aktlaşdırılacaq və imtahanın nəticəsinə görə ona 0 “sıfır” bal müəyyənləndiriləcək.

İmtahan nəticələri həmin gün tələbələrə elan ediləcək. İmtahan suallarından və nəticələrindən razı olmadıqda universitet üzrə yaradılmış Apellyasiya komissiyasının sədrinə həmin gün, müstəsna hallarda isə növbəti gün əsaslandırılmış ərizə ilə müraciət edə bilərsiniz. Müraciətiniz əsaslı olduqda Apellyasiya komissiyasının sədri uyğun fakültə dekanı, kafedra müdiri və fənn müəllimi daxil olmaqla komissiyanı təşkil edəcək və nəticələr yenidən araşdırılacaq. Apellyasiya komissiyasının rəyi müsbət olduqda imtahanın nəticəsinə dəyişiklik edilə bilər. İmtahan nəticələri elan olunduqdan sonra müəyyən edilmiş müddətdən gec təqdim olunmuş ərizə qəbul edilməyəcək.

**Diqqət!**

- İmtahanlarda sualın qoyuluşunda hər hansı bir elmi və ya texniki səhv aşkar etdiyiniz halda yeni bilet çəkə bilərsiniz. Əgər sualı bilməsəniz təkrar bilet çəkə bilərsiniz. Bu zaman

alacağınız qiymət bir vahid azalacaq. Sizə yeni bilet çəkməyə şərait yaradılmasa sualdakı həmin səhvi “**Nümunə**”də göstərilən ərizə formasında qeyd etməklə (sual, sualın qoyuluşunda səhv olduğu halda) **imtahan günü** ərizə forması ilə Apellyasiya komissiyasına müraciət edə bilərsiniz. Müraciətinizi əsas tədris binasına Apellyasiya komissiyasının nümayəndəsinə təqdim etməlisiniz. Ərizənizə qısa qeydlər etdiyiniz cavab blankını da əlavə etməlisiniz. Həmin gün təqdim edilməyən müraciət qəbul edilməyəcək.

Ərizə nümunəsi təlimatın sonuna əlavə edilir.

Apellyasiya komissiyası əsas tədris binasında (Heydər Əliyev prospekti, 429) yerləşir.

***İMTAHAN MƏRKƏZİ***

***Nümunə***

***Gəncə Dövlət Universitetinin rektoru prof. Y.Ə.Yusibova***
***Kimya -biologiya fakültəsinin Kimya və biologiya müəllimliyi ixtisasının I kurs tələbəsi Bağırov Cavid Ərtogrul oğlundan***

***Ə R İ Z Ə***

***Hörmətli Yusif müəllim!***

__.01.2026-cı il tarixdə saat _____ - da "Onurğasızlar zoologiyası" fənnindən şifahi imtahan vermişəm. İmtahanda mənə düşən sualın cavabını danışsam da müəllim cavabımı düzgün qiymətləndirməyib. Xahiş edirəm məsələni araşdırıb mənim imtahan qiymətimdə dəyişiklik edəsiniz.

Imza: C.Ə.Bağırov

Tarix: __.01.2026 (***Ərizədə göstərilən tarixlə təqdim edilmə tarixi eyni olmalıdır***).

**Bakalavriat təhsil səviyyəsində əyani formada yaradıcılıq (qabiliyyət) tələb edən ixtisaslarda təhsil alan tələbələr üçün 2025/2026-cı tədris ilinin payız semestrinin imtahan sessiyasında qabiliyyət formasında keçiriləcək imtahanlara dair**

**T Ə L İ M A T**

**Əziz tələbələr!**

Nəzərinizə çatdırırıq ki, 2025/2026-cı tədris ilinin payız semestri üzrə əyani formada yaradıcılıq tələb edən ixtisaslarda imtahanlar bəzi fənlərdən qabiliyyət formasında keçiriləcəkdir. Semestr ərzində keçirilmiş material əsasında hazırlanmış 75 ədəd suallar əsasında hər birində 5 sual olmaqla 30 ədəd bilet hazırlanacaq.

Qabiliyyət imtahanında bir sualın cavabı 0-10 bal ilə qiymətləndiriləcək.

İmtahandan keçmək üçün imtahandan minimum 17 bal toplamalısınız. İmtahan balı ilə imtahana qədərki (semestr ərzində topladığınız) balın cəmi minimum 51 bal olmalıdır. Əks halda imtahan nəticəniz nəzərə alınmayacaq.

Qabiliyyət imtahanına 3 saat vaxt veriləcək.

İmtahanda iştirak etmək üçün ilk öncə Universitetin II tədris binasında ayrılmış xüsusi otaqlara imtahan başlamazdan ən azı 15 dəqiqə əvvəl gəlmək lazımdır. İmtahan otağına daxil olmazdan əvvəl ixtisas üzrə tyutora müraciət etməli, imtahan nəzarətçisinin göstərişi ilə otaqlara daxil olmalısınız. İmtahan otağındakı avadanlıqlara qayğı ilə yanaşmalı, imtahan bitdikdən sonra otağı tərk etməlisiniz. Yadda saxlamaq lazımdır ki, Sizin ehtiyatsız davranışınız nəticəsində imtahan otağında zədələnən hər bir əşyaya cavabdehlik daşıyırsınız. Özünüzlə gətirdiyiniz əşyalarla diqqətli olmağınız tövsiyə edilir. İmtahan otaqlarında itən əşyalara nəzarətçilər cavabdehlik daşımır.

İmtahan otağına daxil olan zaman otaq nəzarətçisinə şəxsiyyət vəsiqənizi və tələbə vəsiqənizi təqdim etməlisiniz. İmtahan otağındakı nəzarətçilər Sizi uyğun yerlərdə əyləşdirəcək. Şəxsiyyət və tələbə vəsiqəniz üzərinizdə olmadığı halda imtahana buraxılmayacaqsınız. Ona görə də hər iki sənədin üzərinizdə olmasına diqqət etməyiniz məsləhət bilinir.

İmtahan zamanı Sizə biletlər və cavab blankı təqdim ediləcək. Siz imtahanda bilet çəkməli və biletdə göstərilən qabiliyyət tapşırıqlarını icra etməlisiniz.

İmtahan zamanı sualları diqqətlə oxumağınız, biletdə göstərilən sualların Təsviri incəsənət müəllimliyi ixtisasında suallara uyğun mərhələləri dəqiq icra etməyiniz, Musiqi müəllimliyi ixtisasında əvvəlcədən hazırladığınız proqrama uyğun sizə verilmiş əsəri ifa etməyiniz, Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq müəllimliyi və Məşqçilik ixtisaslarında əvvəlcədən təsdiq edilmiş normativləri yerinə yetirməyiniz tövsiyə olunur. Cavab blankına şərti işarə qoymaq, ad, soyad və ata adı yazmaq qəti qadağandır. Cavab blankında hər hansı bir işarə, simvol aşkar edildiyi halda cavabınız nəzərə alınmayacaq və nəticəniz qeyri-kafi qiymətləndiriləcək. Ona görə də bu məsələyə diqqət ayırmağınız tövsiyə olunur.

İmtahan otağından çıxan zaman cavab blankını və bileti nəzarətçiyə təqdim etməlisiniz. Cavab blankını nəzarətçiyə təhvil vermədən imtahan otağını tərk etmək qadağandır. İmtahana 10 dəqiqədən çox gecikən tələbə imtahana buraxılmayacaq. İmtahan otağından imtahan bitməsinə 1 saat qalmış cavab blankını nəzarətçiyə təhvil verdikdən sonra çıxa bilərsiniz. Əks təqdirdə Sizin hərəkətləriniz Universitet daxili intizam qaydalarını pozmaq kimi qiymətləndiriləcək, aktlaşdırılacaq və imtahan nəticəniz ləğv ediləcək. Ona görə də bu kimi hallara yol verməməyiniz tövsiyə olunur.

İmtahana gec gəlmək olmaz. İmtahana gec gələn tələbə öz vaxtını itirə bilər. Bu isə onun sualları cavablandırmağına vaxtının az qalmasına və yaxşı nəticə əldə edə bilməsinə mane törədə bilər. Ona görə də imtahana cədvəldə göstərilən vaxtdan əvvəl gəlmək tövsiyə olunur.

İmtahanın gedişində digər tələbələrlə danışan, onlara mane olan, imtahanda səs salan, kitabdan, mühazirə konspektlərindən və sair icazə verilməyən materiallardan istifadə edən və köçürən tələbə imtahandan xaric edilərək aktlaşdırılacaq və imtahanın nəticəsinə görə ona 0 "sıfır" bal müəyyənləndiriləcək.

İmtahan nəticələri 2 iş günü ərzində tələbələrə elan ediləcək. Qabiliyyət imtahanının suallarından və nəticələrindən razı olmadıqda universitet üzrə yaradılmış Apellyasiya komissiyasının sədrinə qiymət elan olunan gün, müstəsna hallarda isə növbəti gün

əsaslandırılmış ərizə ilə müraciət edə bilərsiniz. Müraciətiniz əsaslı olduqda Apellyasiya komissiyasının sədri uyğun fakültə dekanı, kafedra müdiri və fənn müəllimi daxil olmaqla komissiyanı təşkil edəcək və nəticələr yenidən araşdırılacaq. Apellyasiya komissiyasının rəyi müsbət olduqda imtahanın nəticəsinə dəyişiklik edilə bilər. İmtahan nəticələri elan olunduqdan sonra müəyyən edilmiş müddətdən gec təqdim olunmuş ərizə qəbul edilməyəcək.

Ərizə nümunəsi təlimatın sonuna əlavə edilir. Apellyasiya komissiyası əsas tədris binasında (Heydər Əliyev prospekti, 429) yerləşir.

**Diqqət!**

- İmtahanlarda sualın qoyuluşunda hər hansı bir elmi və ya texniki səhv aşkar etdiyiniz halda **sualı cavablandırmamağınız tövsiyə edilir.** Bu halda otaq nəzarətçisinə müraciət edin (sualda düzəliş edilə və ya yeni bilet təqdim oluna bilər).

***İMTAHAN MƏRKƏZİ***

***Nümunə***

***Gəncə Dövlət Universitetinin rektoru prof. Y.Ə.Yusibova***
***Fizika və texniki fənlər fakültəsinin Təsviri incəsənət müəllimliyi ixtisasının I kurs tələbəsi Bağırov Cavid Ərtogrul oğlundan***

***Ə R İ Z Ə***

***Hörmətli Yusif müəllim!***

__.01.2026-cı il tarixdə saat ____ - da "Rəsm-1" fənnindən qabiliyyət imtahanı vermişəm. İmtahanda mənə təqdim olunan sual düzgün deyil (*başqa səbəblər də göstərilə bilər*). Mən sualı cavablandırmamışam. Xahiş edirəm qeyd olunan sualı yoxlayıb mənim imtahan qiymətimdə dəyişiklik edəsiniz.

Imza: C.Ə.Bağırov

Tarix: __.01.2026 (***Ərizədə göstərilən tarixlə təqdim edilmə tarixi eyni olmalıdır***).